# Təhsil müəssisələrində orduya

## Bakı Dövlət Universitetində



Aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində həlak olmuş hərbiçilərimizin və mülki şəxslərin ruhunu yad etmək və ordumuza dəstək məqsədi ilə Bakı Dövlət Universitetində 6 minədək tələbə-əməkdaşın iştirakı ilə tədbir keçirilib.

Həlak olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə rektor, akademik Abel Məhərrəmov şəhidlərimizin doğmalarına səbr diləyib. Bildirib ki, Ermənistan hərbi qüvvələri artıq bir neçə gündür ki, Azərbaycan kəndlərini, yaşayış məntəqələrini böyük miqyaslı silahlar - top və pulemyotlardan atəşə tutur, hərbi mövqelərimizə ardıcıl zərbələr endirir. Azərbaycan Ordusu vətəndaşların təhlükəsizliyini və öz mövqelərini qorumaq üçün Ermənistan silahlı qüvvələrinə lazımi cavabı verib. ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının və digər beynəlxalq təşkilatların atəşkəsin yenidən təmin edilməsi çağırışlarına cavab olaraq Azərbaycan hücumları birtərəfli qaydada dayandırıb. Lakin Ermənistan atəşkəs çağırışlarına məhəl qoymur və ağır silahlarla Azərbaycanın mövqelərinə atəş açmaqda davam edir. Rəsmi Bakı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə və beynəlxalq hüquq normaları çərçivəsində həllinə tərəfdardır. Azərbaycan münaqişənin həlli ilə bağlı məsələnin reallaşdırılması üçün üzərinə düşənləri yerinə yetirsə də, növbəti təxribat törədilib və qarşısı qətiyyətlə alınıb. Prezident İlham Əliyevin dediyi kimi, "bizə qarşı yenə təxribat törədilərsə onlar yenə də öz cəzalarını alacaqlar. Biz Ermənistan torpağını işğal etməmişik. Biz öz torpağımızda vuruşuruq. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm".

BDU-nun kafedra müdiri, akademik Vasim Məmmədəliyev şəhidliyin ən uca zirvə olduğunu, onların əziz xatirəsinin hər zaman qəlbimizdə yaşayacağını bildirib.

Aprelin 2-də Azərbaycan Respublikası Prezidentinin yanında Təhlükəsizlik Şurasının iclasını əks etdirən film-rolikin nümayişindən sonra tələbələr Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdiklərini, vətənimizi yad tapdağından azad etməyə hər an hazır olduqlarını bildirib, Azərbaycan əsgərinə müraciət qəbul ediblər. Əsgərlərimizin böyük bir məsuliyyət üzərinə götürdüyünü bildirən tələbələr Ali Baş Komandan əmr verərsə hər birinin ön cəbhəyə gedib doğma torpaqlarımızı azad edənədək vuruşmaq əzmində olduqlarını ifadə ediblər.

Tədbir iştirakçıların Azərbaycan himnini səsləndirməsi və "Qarabağ bizimdir, bizim olacaq" şüarları ilə başa çatıb.

## Azərbaycan Dövlət İqtisad Universitetində

Aprelin 4-də UNEC-də Azərbaycan əsgərinə dəstək aksiyası keçirilib. Aksiyada aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində həlak olan hərbiçi və mülki şəxslərin ruhu bir dəqiqəlik sükutla yad edilib.




Tələbələr hər an Azərbaycan əsgərinin yanında olduqlarını, Ali Baş Komandan əmr verərsə hər birinin ön cəbhəyə gedib doğma torpaqlarımızı azad edənədək vuruşmağa hazır olduqlarını bildiriblər. Aksiyada tələbələr Azərbaycanın Dövlət himnini oxuyub, "Liderə inanaq, Qarabağa qayıdaq", "Şəhidlər ölməz, Vətən bölünməz", "Qarabağ bizimdir, bizim olacaq", "Azərbaycan əsgəri, keç səngərdən irəli" şüarları səsləndiriblər.

Eyni zamanda, bu gün Azərbaycan Dövlət İqtisad Universitetinin bütün tədris binalarında dərslər Azərbaycan Silahlı Qüvvələrinin cəbhə xəttində düşmənlə döyüşlərdə şəhid olan hərbi qulluqçuların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət himni ilə başlayıb.

## Azərbaycan Texniki Universitetində




Aprelin 4-də Azərbaycan Texniki Universitetində (AzTU) tələbələrin təşəbbüsü ilə ordumuza dəstək və Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində həlak olmuş hərbiçilərimizin, mülki şəxslərin ruhunu yad etmək üçün aksiya keçirilib. Kütləvi tədbirdə universitetin 4 minədək tələbə və əməkdaşı iştirak edib.

Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanan aksiya zamanı ilk olaraq şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib. Daha sonra rektor, professor Havar Məmmədov tələbələrin təşəbbüsünü yüksək qiymətləndirərək onların hərbi əməliyyatlarda yaralananlara yardım məqsədi ilə qan vermək üçün universitet rəhbərliyinə müraciət etməsini fəxarətlə diqqətə çatdırıb. Professor Havar Məmmədov ordumuzun son həmləsinin düşmən üzərində haqlı qələbə olduğunu bildirib.

Qeyd edilib ki, aprelin 1-dən 2-nə keçən gecə cəbhədə baş verən hərbi əməliyyat Azərbaycan ordusunun gücünü bir daha göstərdi. Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşən xalqımız, ələlxüsus gənclərimiz işğal altında olan torpaqlarımızı azad etmək iqtidarındadır. Biz sülhsevər xalq olduğumuz üçün münaqişənin dinc yolla həll olunmasını istəyirik. Lakin bu o demək deyil ki, Azərbaycan ordusu mənfur düşmənin torpaqlarımıza girməsinə, əliyalın mülki əhaliyə qarşı təxribat törətməsinə imkan verəcək.

Aksiyada çoxlu sayda tələbə çıxış edib. Çıxışlarda tələbələr ölkənin siyasi, iqtisadi və hərbi gücünə diqqət çəkərək Azərbaycan gənci olduqları üçün qürur duyduqlarını bildiriblər. Tələbələr işğal altında olan torpaqlarımızın azad edilməsi üçün hər an bir əsgər kimi Ali Baş Komandanın əmrini gözlədiklərini bəyan ediblər.

Üçrəngli bayrağımızla bəzənən insan izdihamı sonda ordumuza dəstək olmaq üçün "Vətəni qorumağa hazırıq! Erməni işğalçıları torpaqlarımızdan rədd olsun! Ali Baş Komandanın əmrini gözləyirik! Yaşasın Azərbaycan ordusu!" şüarlarını səsləndirib.

## Azərbaycan Dillər Universitetində

Aprelin 4-də Azərbaycan Dillər Universitetində (ADU) Tələbə Həmkarlar Təşkilatının təşkilatçılığı ilə 1992-ci il Qarabağ döyüşləri zamanı şəhid olan Niyazi Paşayev və aprelin 1-dən 2-nə keçən gecə cəbhədə Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində həlak olanların ruhunu yad etmək, o cümlədən ordumuza dəstək məqsədi ilə "Sizə ölüm yaraşmırdı" adlı tədbir keçirildi. Tədbir Azərbaycan Respublikasının Dövlət himninin tələbələr və iştirakçılar tərəfindən canlı ifa olunması ilə başladı, daha sonra şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.



ADU-nun rektoru vəzifəsini icra edən professor Dünyamin Yunusov son günlər cəbhənin müxtəlif istiqamətlərində gedən döyüşlərdən danışaraq düşmən təxribatının qarşısının ordumuz tərəfindən layiqincə alınması, erməni silahlı qüvvələrinin ağır itkiyə məruz qalması, eyni zamanda strateji cəhətdən mühüm əhəmiyyətə malik ərazilərin ordumuz tərəfindən alınması haqqında məlumat verdi. Azərbaycanın haqq işi qalib gəlməkdədir deyən Dünyamin Yunusov, ölkə rəhbərliyinin yeritdiyi düzgün siyasət sayəsində ədalətin öz yerini tapacağını vurğuladı. Günü-gündən güclənən ordumuzun və vətənpərvər gənclərimizin səyi nəticəsində bayrağımızın Qarabağda dalğalanacağına əminlik ifadə olundu.

Sonra çıxış edən Milli Məclisin deputatı Aydın Mirzəzadə tələbələr tərəfindən belə bir tədbirin uyğun zamanda keçirilməsini yüksək qiymətləndirdi. O, bu günlərdə cəbhədə cərəyan edən hadisələrdən bəhs edərkən ordumuzun sayıqlığı və güclü döyüş qabiliyyəti sayəsində təxribatın qarşısının alınması, qısa zamanda 2 kənd, strateji əhəmiyyətə malik ərazilərin ələ keçirilməsi, düşmənin hərbi obyektlərinin, canlı qüvvəsinin məhv edilməsi barədə məlumat verdi. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə dinamik inkişaf prosesinə qədəm qoyan Azərbaycan dövləti bu gün bütün beynəlxalq aləmdə də öz maraqlarını qoruyur deyən deputat, cənab Prezident İlham Əliyevin siyasi əzminin, məqsədyönlü siyasətinin ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsinə istiqamətləndiyini diqqətə çatdırdı.

Tədbirdə çıxış edən şəhidin anası Şöhrət Paşayeva xatirələrindən, könüllü şəkildə cəbhəyə yollanan və döyüşlərdə yaralanan ADU-nun tələbəsi İmran Xəlilov döyüş təəssüratlarından danışdılar.

Sonda ADU-nun sosial elmlər kafedrasının dosenti Xanməmməd İbrahimov, adıçəkilən kafedranın dosenti, ümumi şöbənin müdiri Aidə Rəcəbova ermənilərin əzəli Azərbaycan torpaqları hesabına dövlət yaratmaq siyasəti yeritməsindən, müxtəlif zamanlarda törədilən qırğınların məhz həmin siyasətə xidmət etməsindən bəhs etdilər.

Tədbirdə ADU-nun alman dilinin tərcüməsi kafedrasının dosenti Yusif Savalan və tələbələrinin ifasında şəhidlərə həsr olunan milli vətənpərvərlik ruhunda şeirlər səsləndirildi, mahnılar ifa olundu.

## Mingəçevir Dövlət Universitetində




Aprelin 1-dən 2-nə keçən gecədən başlayaraq Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribatı nəticəsində həlak olmuş hərbiçilərimizin və mülki şəxslərin ruhunu yad etmək və ordumuza dəstək məqsədi ilə Mingəçevirdə şəhərin gəncləri, ali və orta ixtisas təhsil müəssisələrinin tələbələri, Qarabağ və Əfqanıstan müharibəsinin veteranları, gənclər təşkilatlarının iştirakı ilə tədbir keçirilib.

Həlak olanların xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlanan tədbirdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Şəhər stadionunda baş tutan tədbirdə gənclər çıxış edərək fikirlərini bildirib, şüarlar səsləndiriblər. Qeyd ediblər ki, Ermənistan hərbi qüvvələri artıq bir neçə gündür cəbhəyanı yaşayış məntəqələrini top və pulemyotlardan atəşə tutur, hərbi mövqelərimizə ardıcıl zərbələr endirir. Azərbaycan Ordusu vətəndaşların təhlükəsizliyini və öz mövqelərini qorumaq üçün Ermənistan silahlı qüvvələrinə lazımi cavabı verir. ATƏT-in Minsk qrupuna həmsədrlik edən ölkələrin dövlət başçılarının və digər beynəlxalq təşkilatların atəşkəsin yenidən təmin edilməsi çağırışlarına cavab olaraq Azərbaycan hücumları birtərəfli qaydada dayandırıb. Lakin Ermənistan atəşkəs çağırışlarına məhəl qoymur və ağır silahlarla Azərbaycanın mövqelərinə atəş açmağa davam edir. Azərbaycan münaqişənin həlli ilə bağlı üzərinə düşənləri yerinə yetirsə də, növbəti təxribat törədilib və qarşısı qətiyyətlə alınıb. Prezident İlham Əliyevin dediyi kimi, "bizə qarşı yenə təxribat törədilərsə onlar yenə də öz cəzalarını alacaqlar. Biz Ermənistan torpağını işğal etməmişik. Biz öz torpağımızda vuruşuruq. Əgər erməni əsgəri ölmək istəmirsə, Azərbaycan torpağından rədd olsun. Mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm".

Natiqlər şəhidliyin ən uca zirvə olduğunu, şəhidlərin əziz xatirəsinin hər zaman qəlbimizdə yaşayacağını bildiriblər.

Sonra aksiya Mingəçevir şəhərinin prospekt, küçə və meydanlarında davam edib.

## Lənkəran Dövlət Universitetində

Lənkəran Dövlət Universitetində Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlarla əlaqədar mitinq keçirilib.

Universitet Tələbə Gənclər Təşkilatının keçirdiyi mitinqdə 1500-dən çox tələbə iştirak edirdi.

Əllərində "Azərbaycan əsgəri, biz səninlə fəxr edirik!", "Erməni əsgəri, rədd ol Azərbaycan torpağından!", "Torpaq uğrunda ölən varsa vətəndir!", "Azərbaycanın hər bir əsgəri Mübarizdir!" , "LDU tələbələri Prezidentimizin ətrafındadır!" və s. şüarlar tutan tələbələr ordumuza dəstəklərini nümayiş etdiriblər.




Mitinqi Universitet Tələbə- Gənclər Təşkilatının sədri Emin Həmidli açaraq son vaxtlar erməni silahlı bölmələrinin təmas xəttində atəşkəs rejimini mütəmadi olaraq pozduğunu və düşmən təxribatlarının intensiv xarakter daşıdığını söylədi.

Universitetin tələbələrindən Elvin Əsədov, Cəmilə Hüseynova, Rəşad Paşayev, Günel Şirinova, Elnur Səmədov, Rəmziyyə Teymurbəyli və başqaları çıxış edərək Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində baş verən hadisələrə münasibətini bildirdilər.

Çıxışlarda qeyd edildi ki, bu gün Azərbaycanın torpaqlarımızı müdafiə edə, dövlət müstəqilliyini qoruya bilən güclü, etibarlı Milli Ordusu var. Ermənistan işğalçıları ilə üz-üzə dayanmış ordumuzun hərbi qüdrətinin nəyə qadir olduğunu bu günlər biz bir daha şahid olduq. Bundan qürur və fərəh hissi keçirən hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan gənci əmindir ki, şanlı ordumuz işğal altında olan torpaqlarımızı dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin əmri ilə istənilən an azad etməyə qadirdir.

Universitetin əslən cəbhə bölgəsindən olan ikinci kurs tələbəsi Günel Şirinovanın çıxışı alqışlarla qarşılandı. O dedi:

-Ailəmiz Ağcabədi rayonunda məskunlaşıb, amma geri çəkilməmişik. Biz şanlı ordumuza arxayınıq. Vətən, torpaq, ərazi bütövlüyümüz uğrunda şəhid olmuş igidlərimizin həyat yolu biz gənclərə nümunədir.

Mitinq göstərdi ki, Vətənə, millətə, xalqa və dövlətə sədaqətlə xidmət göstərən vətənpərvər gənclərimiz çoxdur.

Tələbələr qəbul etdikləri qətnamədə Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevin daxili və xarici siyasətini bəyəndiklərini, onun ətrafında sıx birləşdiklərini qeyd etdilər.

Tələbələr Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılmasını qətiyyətlə tələb etdilər.

Tədbirin sonunda LDU-nun rektoru vəzifəsini icra edən professor Nizami Yusubov çıxış edərək ölkə başçısı cənab İlham Əliyevin əmrinə Lənkəran Dövlət Universiteti gənclərinin hər an hazır olduğunu bildirdi.

Sonda tələbələr "Azərbaycan əsgəri" sözlərindən ibarət flaşmob nümayiş etdirdilər.

# dəstək aksiyaları keçirilib

## Azərbaycan Dövlət Neft və Sənaye Universitetində

Aprelin 4-də Azərbaycan Dövlət Neft və Sənaye Universitetində tələbələr aprelin 2-də təmas xəttində baş verən erməni təxribatlarını, atəşkəsin pozulmasını, erməni cinayətkarlığını pisləyən aksiya keçiriblər. "Qarabağı işğaldan azad edəcəyik", "Şəhidlər ölməz, Vətən bölünməz", "Qarabağ bizimdir, düşməndə qalmaz" kimi şüarlar səsləndirən gənclər Dövlət himnini oxuyublar. Aksiyada rektor Mustafa Babanlı və müəllim heyəti də iştirak edib. Ermənistanın Azərbaycana qarşı törətdiyi silahlı təxribatı nəticəsində həlak olmuş hərbiçilərimizin və mülki şəxslərin ruhu bir dəqiqəlik sükutla yad olunub.



Dövlətə, orduya, Ali Baş Komandana dəstək məqsədilə bir araya gələn aksiya iştirakçıları çıxış edərək erməni işğalçılarının Azərbaycan torpaqlarında törətdiyi cinayətkar əməllərdən söz açıb, düşmənlərin öz layiqli cabavlarını aldıqlarını bildiriblər. Rektor M.Babanlı tələbələrin təşəbbüsü ilə keçirilən "Cəbhədə ordumuz tərəfindən erməni təxribatına verilən layiqli cavaba dəstək" aksiyasını yüksək dəyərləndirib. Bildirib ki, Azərbaycan dövləti münaqişənin sülh yolu ilə, danışıqlar müstəvisində həllinə çalışdıqca, erməni işğalçıları bundan şirniklənərək daha çox torpaq işğal etmək niyyətlərini ortaya qoyurlar. Son günlər cəbhədə baş verənlər cəmiyyətin hər bir üzvü kimi tələbələri də düşündürməkdədir. Bu mənada Azərbaycanda vətənpərvər gənclərin yetişdiyini qeyd edən rektor hər kəsi işğalçı Ermənistanın məkrli siyasətinə qarşı birgə olmağa səsləyib.

Aksiya iştirakçıları çıxışlarında dünya ictimaiyyətini Ermənistanın məkrli siyasətinə qarşı ədalətli olmağa çağırıblar.

## Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində

ADMİU rektorluğu və tələbə heyəti cəbhə bölgəsində baş verən hadisələrlə bağlı mitinq keçirib. Tədbir son günlərdə baş verən döyüşlərdə şəhid olan qəhrəmanların ruhunun bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Universitetin rektoru, professor Fərəh Əliyeva Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Təhlükəsizlik Şurasının iclasındakı çıxışını tələbə və müəllim heyətinin diqqətinə çatdırıb.



Sonra universitetin tələbələrinə söz verilib. Kulturologiya fakültəsinin muzeyşünaslıq və arxiv işi ixtisası üzrə təhsil alan Ayxan Orucov Qarabağ müharibəsinin xronologiyasına toxunaraq, ermənilərin Azərbaycanın işğal altında olan ərazilərində mədəniyyət nümunələrini tariximizdən silmək cəhdlərini pisləyib. Daha sonra rəssamlıq fakültəsinin 3-cü kurs tələbəsi Fidan Böyükbabalı çıxış edib. O, şəhid Samir Kaçayev haqqında danışaraq gəncləri informasiya müharibəsində aktiv olmağa, həmçinin lazım gələrsə yaralı əsgərlərə qan verməyə səsləyib. Rəssamlıq fakültəsinin 2-ci kurs tələbəsi Emil Ağayev də odlu, alovlu çıxışı ilə hər an dövlətimiz və dövlətçiliyimiz naminə yumruq kimi birləşib Qarabağ uğrunda döyüşlərdə canımızdan keçməyə hazırıq deyərək yaşasın Azərbaycan, yaşasın xalqımız şüarını səsləndirib.

## Azərbaycan Texnologiya Universitetində

Azərbaycan Texnologiya Universitetində (ATU) Qarabağda torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə iştirak edən hərbiçilərə dəstək aksiyası keçirilib. Aksiyaya universitet rəhbərliyi, professor-müəllim heyəti və yüzlərlə tələbə qatılıb.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra tədbir iştirakçıları Azərbaycan Respublikasının Dövlət himnini səsləndirib.



ATU-nun rektoru, professor Akif Süleymanov aksiya iştirakçıları qarşısında çıxış edərək deyib ki, aprel ayının 1-dən 2-nə keçən gecə Ermənistan silahlı qüvvələri Azərbaycana qarşı növbəti silahlı təxribat törədib. Təmas xəttində yerləşən mövqelərimizə hücum çəkilməsi və həmin ərazilərə yaxınlıqda yerləşən yaşayış məntəqələrimizin atəşə tutulması nəticəsində hərbiçilərimiz və mülki şəxslər həlak olub. Ordumuzun cavab zərbələri ilə düşmənə layiqli cavab verilib və verilməkdə davam edir. Rektor bildirib ki, bu gün cəbhədə baş verənlərlə bağlı cəmiyyətimizdə böyük ruh yüksəkliyi müşahidə olunmaqdadır. Hər bir Azərbaycan vətəndaşı, o cümlədən gənclər bu müqəddəs işə var qüvvəsi ilə dəstək olmağa, üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə çalışır. Silahlı qüvvələrimiz tərəfindən erməni təxribatının qarşısının layiqincə alınması ordumuza, xalqımızın qələbəsinə inamı daha da artırır. Silahlı birləşmələrimizin əlverişli hərbi mövqeləri ələ keçirməsi təmas xəttində Azərbaycanın üstünlüyünü daha da artırıb. Professor Akif Süleymanov deyib ki, bu gün ATU-nun bütün kollektivi hər bir azərbaycanlı kimi yaşından asılı olmayaraq istənilən anda səfərbər olmağa, dövlət başçısı, Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək öz vətəndaşlıq borcunu yerinə yetirməyə hazırdır.

Aksiya boyunca tələbələr tez-tez "Şəhidlər ölməz, Vətən bölünməz", "Qarabağ bizimdir, bizim olacaq", "Yaşasın Azərbaycan!" şüarları səsləndiriblər.

Sonra ATU-nun rəhbərliyi və tələbələri Gəncədə şəhər miqyasında təşkil olunan orduya dəstək aksiyasına qoşulub.

## Bakı Ali Neft Məktəbində

Bakı Ali Neft Məktəbinin tələbələri cəbhədə aprelin 1-dən başlayaraq gedən şiddətli döyüşlərdə rəşadətli ordumuzun düşmənə sarsıdıcı zərbələr endirməsi və hərbiçilərimizə dəstək münasibəti ilə aksiya keçiriblər. Tələbələr əsgər marşı oxuyub və Azərbaycanın üçrəngli bayrağını dalğalandırıblar. Tələbələr "Yaşasın Azərbaycan əsgəri!", "Var olsun vətənimiz! Xar olsun düşmənimiz!", "İlhamla İrəli! Get qazan zəfərləri!" "Hər şey vətən üçün!", "Şəhidlər ölməz! Vətən bölünməz!", "Vətən sənə, canım fəda!", "Qarabağ bizimdir! Bizim olacaq!", "Ordumuzla fəxr edirik!", "Bir millət-iki dövlət! Azərbaycan-Türkiyə!", "Qarabağ üçün vuruşmağa ancaq Ali Baş Komandanın əmrini gözləyirik!" şüarlarıyla ordumuza dəstək nümayiş etdiriblər.



Tədbirdə çıxış edən Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov xalqımızı təbrik edərək Azərbaycan kəndlərini, yaşayış məntəqələrini, hərbi mövqelərimizi şiddətli atəşə tutan Ermənistanın hərbi qüvvələrinə cavab olaraq Azərbaycan ordusunun son günlərdə düşmənə sarsıdıcı zərbələr vurduğunu, Azərbaycanın işğalda olan bir neçə yüksəklikliyinin ordumuz tərəfindən azad edildiyini və bununla böyük qürur hissi keçirdiyini bildirib. Rektor qeyd edib ki, ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan, bu gün isə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi siyasət nəticəsində qurulan güclü ordumuzun qəhrəmanlıqları Azərbaycanı günü-gündən qələbəyə aparır. Elmar Qasımov beynəlxalq təşkilatların çağırışlarına məhəl qoymayan Ermənistanın dəfələrlə cəbhə xəttində təxribata cəhd göstərdiyini, lakin Azərbaycan Ordusu tərəfindən onlara layiqli cavab verildiyini deyib. O, Qarabağın tezliklə işğaldan azad olacağına və orada Azərbaycan bayrağının ucaldılacağına əminlik ifadə edib. Rektor Qarabağ uğrunda həlak olmuş şəhidlərimizin xatirəsini yad edərək, onların ruhunun şad olması və torpaqlarımızın bütövlüyü naminə hər kəsi Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməyə çağırıb.

Bakı Ali Neft Məktəbinin tədris, elm və beynəlxalq əlaqələr üzrə prorektoru, professor Ramiz Hümbətov son günlərdə cəbhə xəttində yaşanan hadisələrdən böyük qürur hissi keçirdiyini, haqq səsimizi dünyaya çatdırmağı bacardığımızı və Azərbaycan xalqının doğma torpaqlarını erməni işğalçılarından azad etməyə hər an hazır olduğunu deyib.

## Gəncə Dövlət Universitetində

Gəncə Dövlət Universitetinin II tədris korpusunun qarşısında yerləşən Bayraq meydanında GDU və Azərbaycan Dövlət Aqrar Universitetinin müəllim və tələbələrinin iştirakı ilə aksiya keçirilib. Cəbhədə gedən döyüşlərdə şəhid olanların yaxınlarına və döyüşən əsgərlərimizə dəstək məqsədilə keçirilən aksiyada 10 mindən çox insan iştirak edib.

Böyük coşqu ilə keçən möhtəşəm aksiyada vətənpərvərlik məzmunlu şüarlar səsləndirilib, ordumuza dəstək ifadə olunub.

Aksiya Dövlət himnimizin ifası ilə başlayıb, onunla da yekunlaşıb.

## Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında

Aprelin 5-də Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şamaxı filialında "Qələbə bizimlədir" devizi altında ordumuza dəstək aksiyası keçirilib.

ADPU-nun Şavaxı filialından daxil olan məlumata görə, mitinqdə əvvəlcə Azərbaycanın Dövlət himni səsləndirilib. Torpaqlarımızın azadlığı uğrunda şəhid olan əsgərlərimizin ruhu bir dəqiqəlik sükutla yad edilib.

Filialın direktoru, filologiya üzrə fəlsəfə doktoru Tünzalə Yusifova çıxış edərək Ermənistan ordusunun Azərbaycan ərazisində, qoşunların təmas xəttində törətdikləri təxribat, Silahlı Qüvvələrimizin sarsıdıcı cavab zərbəsi, düşmənin itkiləri barədə geniş məlumat verib. Azərbaycan Respublikasının Prezidenti yanında Təhlükəsizlik Şurasının iclasında Ali Baş Komandan İlham Əliyevin çıxışına diqqəti cəlb edən natiq ermənilərin gec-tez öz layiqli cəzalarını alacaqlarını bildirib. Vurğulanıb ki, bu sahədə hər bir azərbaycanlı Prezidentimizin qətiyyətli mövqeyini müdafiə edir, səfərbərlik çağırışına hazır olduğunu bildirir. "Hər kəs torpaqlarımızın azad olması üçün bir yumruq kimi birləşib. Bu, əlbəttə, vətənə, torpağa olan böyük məhəbbətin gücüdür. Bu, Prezidentimiz İlham Əliyevə olan inamın, məhəbbətin gücüdür. Bunun qarşısında dayana biləcək qüvvə yoxdur. Şübhə yoxdur ki, tezliklə Azərbaycan bayrağı Şuşada, Laçında dalğalanacaq", - deyə T.Yusifova qeyd edib.

Filialın əməkdaşlarından Mayıl Alcanov, Çingiz Dadaşov, əsgər anası Münəvvər Məmmədova, tələbələrdən Şirin Qarabağlı, Rövşanə Quliyeva, Heydər Sadıqov, Nurlan Mustafayev çıxışlarında əsgərlərimizin qəhrəmanlıqlarından söhbət açıblar.

Əllərində bayraqlar və qələbə ruhlu şüarlar olan tələbələr lazım gələrsə ön cəbhədə vuruşmağa hazır olduqlarını söyləyiblər.

## Dövlət Dəmir Yolu liseyində

Aprelin 2-dən 5-dək üç gün ərzində Dağlıq Qarabağ münaqişəsi zonasında ermənilərin təxribatına cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin həyata keçirdiyi əməliyyat nəticəsində qoşunların təmas xəttində yerləşən işğalçı Ermənistan ordusunun mövqelərinə sarsıdıcı zərbə endirildi, düşmən həm canlı qüvvə, həm də texnika baxımından ağır itkilərə məruz qaldı və geri çəkilməyə məcbur oldu.

Azərbaycan Ordusu cəbhədə mühüm hərbi-strateji yüksəklikləri ələ keçirdi və orada möhkəmləndi. Bununla da Azərbaycan Ordusu qısa müddətdə qarşısına qoyulan strateji missiyanı yerinə yetirdi.

Bu münasibətlə Dövlət Dəmir Yolu liseyində möhtəşəm tədbir keçirildi.

Toplantını liseyin direktoru, dosent Həsən Bayramov açdı. Daha sonra liseyin Valideyn Şurasının sədri Sona Hüseynova, müəllimlərdən Qəhrəman Cəfərov, Nuranə Əhədzadə, şagirdlərdən Məhəmməd Rəhimli və Azad Mirzəzadə çıxış etdilər.

Çıxış edənlər ordumuzun uğurlarını dəstəklədilər, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə düşmənə layiqli cavab verilməsini ürəkdən alqışladılar.

## Bakıdakı 9 nömrəli tam orta məktəbdə

Aprelin 5-də Bakıdakı 9 nömrəli tam orta məktəbdə "Vətən bizi çağırır" adlı tədbir keçirilib. Əvvəlcə torpaqlarımızın müdafiəsi, Vətənimizin bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə məktəbin direktoru Zinyət Əhmədova açaraq hərbi vətənpərvərlik tərbiyəsi ilə bağlı keçirilən tədbirlərin əhəmiyyətindən danışıb, şagirdləri doğma Vətəni sevməyə, onu hər zaman, hər an göz-bəbəyi kimi qorumağa çağırıb. Son günlər cəbhə xəttində baş verən hadisələrdən, düşmən təxribatının qarşısını alan və düşmənə sarsıdıcı zərbə endirən xalqımızın igid oğullarının rəşadətindən söhbət açan Z.Əhmədova şagirdləri hərbi biliklərini həmişə artırmağa, işğal altında olan torpaqlarımızın müdafiəsinə və düşməndən alınması üçün çalışmağa səsləyib.

Məktəbin 10 və 11-ci sinif şagirdləri çıxışlarında Vətənə məhəbbət, qəhrəmanlıq, şəhidlik mövzularında mahnılar oxuyub, şeirlər söyləyib və üçrəngli Azərbaycan bayrağına daim sədaqətli olacaqlarına, ərazi bütövlüyümüzün bərpa olunmasında lazım gələrsə canlarından keçəcəklərinə söz veriblər.

Tədbirdə iştirak edən Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Nəsimi rayon təşkilatının sədri Azər Quliyev, Nəsimi Rayon İcra Hakimiyyətinin nümayəndəsi Xalid Kərimov və digər şəxslər gənclərin vətənə məhəbbətini, milli-mənəvi dəyərlərə bağlılığını ön plana çəkərək, belə gənclərlə qürur duyduqlarını bildiriblər. Onlar tarixən düşmənin Azərbaycana vurduğu zərərlər haqqında geniş məlumat veriblər.

Şagirdlər maraqlı çıxışlar edərək bir daha bu fikri səsləndiriblər- "Şəhidlər ölməz, Vətən bölünməz".